

## ARİF DAĞLAROĞLU

**Arif Firdovsi oğlu Nuriyev** 1992-ci ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olmuşdur.

2009-cu ildə Tovuz rayon Məstan Novruzov adına Çeşməli kənd tam orta məktəbi bitirmişdir.

2006-cı ildə yazdığı "Dünya" şeiri ilk qələm məhsuludur.

"Kim kimdir" şeir toplusu daxil olmaqla, bir sıra mətbu orqanlar müəllifin yaradıcılığına müraciət etmişdir.

## AMİN

Bu bəxti, taleyi bəxş edən Allah,
Bircə nəzərindən salmasın, Amin!
Hər insana fərqli bəxt yazıb Allah,
Bəxtim vaxtından tez solmasın, Amin!

Üz tutub deyirəm: – Ya Rəbbi sənə,
Çəkilməz dərdləri vermə sən mənə...
Tanrım, yaxşıları batırıb qəmə
Sevinci əlindən almasın, Amin!

Yaradan yaradıb hər bir insanı,
Veribdi rəhmindən ona amanı...
Sevən ürəklərin arzu, gümanı
Yarımçıq, natamam qalmasın, Amin!

Dilindən çıxdısa, söz sənin deyil,
Özgə ocağında köz sənin deyil...
Bu dağlar, dərələr, düz sənin deyil,
Görənlər kədərə dalmasın, Amin!





## GEDİBDİ

Bilmirəm qəzadı, yoxsa fırtına,
Dağılıb dövlətim, var da gedibdi...
Hamıdan çox sevib əziz bildiyim,
Ümid bəslədiyim yar da gedibdi...

Aylarım il oldu, günlərim həftə,
Qəm, kədər məni saxlayıb hədəfdə...
Qaranlıq görünür bəxtim tərəfdə.
Nübarlı bağçamdan bar da gedibdi...

Dindirməyin Arifi, kövrəlibdi –
Ruhun, qəlbin tikanlı dərd dəlibdi...
Ömrümün qışına bahar gəlibdi,
Dağların başından qar da gedibdi!

## BİLMƏRİK

Biz gedən qatarın insanlarıydıq –
İtdi biletimiz, çata bilmərik...
Saf eşqi düz olan əhdi-ilqarı
Sevən qəlbimizdən ata bilmərik!

Bir ocaq qalasan, gərək köz ola,
Durub danışanda sözün söz ola...
Gözəl hörmət ola, vəfan düz ola,
Vicdanı hər şeyə sata bilmərik!

Salma yersiz yerə bir qeylü-qalı,
Pozular məzlumun kefi, əhvalı...
Haramdan ayıraq gərək halalı,
Yaxşını yamana qata bilmərik!

Arifin əlində titrəyər qələm,
Səsimə səs verə cümlə bir aləm...
Şeytana aldanıb qovuldu Adəm,
Günahla qəbirdə yata bilmərik!

## XEYRİ YOX

Biz zamana tabe olan qul, əsir –
Ömür gedir, qocalığa tələsir...
Görürsən ki, ayaq gedir, baş əsir,
Bundan sonra düşünməyin xeyri yox!

Bu həyatda fikirləşib hər işi,
Tərgidəsən pis əməli, vərdişi...
Olan olub, az xatırla keçmişi,
Keçmişinlə keçinməyin xeyri yox!

Daglaroğlu bir gün ölüb gedəcək,
Bu həyatı əbədi tərk edəcək...
Gələn nəsil öz sözünü deyəcək,
Göz yaşıyla isinməyin xeyri yox!





## OLSUN

İstəməm xanlığı, nədə bəyliyi,
Quruca namusum, qeyrətim olsun!
Özgə kölgəsində daldalanmayım,
Xalqımın önündə hörmətim olsun!

Arxadı, dayaqdı el bizim üçün,
Müqqədəs varlıqdır dil bizim üçün...
Ömürdən keçir ay, il bizim üçün,
İstəməm haramla sərvətim olsun!

Ay Arif, həyatı dərk elə, anla,
Çalışma yuyasan sən qanı qanla...
Zirvəyə çatammaz heç kəs yalanla ,
Danışsam, düz sözüm, söhbətim olsun!